DOI: https://doi.org/10.36719/2663-4619/126/15-27

**Elmira Axundova**
Bakı, Azərbaycan
sənətşünaslıq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-8661-567X
elmira_akhundova@yahoo.com.tr

# Əndəlüs Əməvi Dövlətində Şərq-Qərb mədəniyyətinin vəhdəti və cəmiyyət dəyərləri

## Xülasə

Ərəb fəthləri və İslamın yayılması nəticəsində müsəlmanlar müxtəlif mədəniyyətlərlə qarşılaşaraq elmi və iqtisadi inkişafı təşviq etdilər, xüsusən də Əndəlüs dövrü bu irəliləyişə mühüm töhfələr verdi. III Əbdürrəhman və II Hakim dövründə Əndəlüs Əməviləri dövləti İslam və Qərb mədəniyyətlərini birləşdirərək elmi inkişafın zirvəsinə çatdı. Məktəblər və kitabxanalar, xüsusilə Qurtuba (Cordoba), Ğarnata (Qranada) və İşbiliya (Sevilla) şəhərlərində təşəkkül etmiş memarlıq və sənət nümunələri, elm və təhsil mərkəzləri əhəmiyyətli rol oynadılar. Bu dövrdə tərcümə fəaliyyəti Qərbdə Renessansın başlanğıcını qoyaraq Şərq və Qərb elmlərini birləşdirdi.

İbn Baccə və İbn Rüşd kimi filosoflar fəlsəfi düşüncəyə yeni yanaşmalar gətirərək həm İslam dünyasına, həm də Qərbə böyük təsir etdilər. İbn Rüşdün Aristotel təfsiri və fəlsəfə ilə dini birləşdirən yanaşmaları Qərb fəlsəfəsində mühüm yer tutdu. Eyni zamanda Ziryab musiqi sahəsində yeniliklər edərək Əndəlüs mədəniyyətini zənginləşdirdi və musiqi tədrisini təşkil edərək Avropaya böyük təsir göstərdi.

İbn Xaldun isə tarix fəlsəfəsinə dair orijinal yanaşmalar gətirərək cəmiyyətlərin inkişafını və sosial əlaqələrini izah etdi, “asabiyyə” anlayışını irəli sürərək cəmiyyətlərin gücünü sosial bağlılıqla əlaqələndirdi. Onun *Müqəddimə* əsəri tarix və sosial elmlər üçün əhəmiyyətli bir təməl oldu. Bu böyük mütəfəkkirlər həm İslam dünyasında, həm də dünya tarixində dərin izlər buraxmış və mədəniyyətlərin qarşılıqlı təsirinə zəmin yaratmışdır.

***Açar sözlər:*** *Əndəlüs Əməvi Dövləti, Şərq və Qərb fəlsəfəsi, İbn Rüşd, İbn Baccə, Ziryab, İbn Xaldun*

**Elmira Akhundova**
Baku, Azerbaijan
PhD in Art History
https://orcid.org/0009-0007-8661-567X
elmira_akhundova@yahoo.com.tr

# The Unity of Eastern and Western Cultures and Social Values in the Umayyad State of Andalusia

## Abstract

Muslims were introduced to different cultures as a result of the Arab conquests and the spread of Islam, promoted scientific and economic development; the Andalusian period, in particular, made significant contributions to this progress. The Umayyad Caliphate in Andalusia during the reigns of Abd al-Rahman III and al-Hakim II united Islamic and Western cultures and reached the peak of scientific development. Schools and libraries, especially architectural and artistic examples, science and education centers that developed in cities such as Qurtuba (Cordoba), Garnata (Granada), and Ishbiliya (Seville), played an important role. During this period, translation activities brought together Eastern and Western sciences, marking the beginning of the Renaissance in the West.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Philosophers like Ibn Bajjah and Ibn Rushd introduced new approaches to philosophical thought, having a profound impact on both the Islamic world and the West. Ibn Rushd's interpretation of Aristotle and his approaches that united philosophy and religion have held an important place in Western philosophy. Ziryab also enriched Andalusian culture with his innovations in music and had a great impact on Europe by organizing music education.

Ibn Khaldun brought original approaches to the philosophy of history, explained the development of societies and social relations, introduced the concept of "asabiyya" (group solidarity), and linked the strength of societies to social cohesion. His work *Muqaddimah* (*Introduction*) became an important foundation for history and social sciences. These great thinkers left a deep mark on both the Islamic world and world history and led to the interaction of cultures.

***Keywords:*** *Umayyad State of Andalusia, Eastern and Western philosophy, Ibn Rushd, Ibn Bajja, Ziryab, Ibn Khaldun*

## Giriş

Ərəb fəthləri və İslamın yayılması ilə müxtəlif coğrafi sivilizasiyalarla qarşılaşan müsəlmanlar idarə etdikləri ərazilərdə xalqların mədəniyyətindən, ənənələrindən faydalanıb, elmi, iqtisadi, ictimai irəliləyişlərə müvəffəq olub, mühüm başlanğıclara, ümumbəşəri nailiyyətlərə, intellektual inkişafa zəmin yaratmışlar. İslam qalibiyyətlərinin son mərhələsi Əndəlüsün fəthi ilə əlaqələndirilir. Bərbər əsilli Tarix ibn Ziyad 711-ci ildə Sabtah (Ceuta) limanından İspaniyanın cənubuna, Avropanın Aralıq dənizinə uzanan üç yarımadadan birinə – İbərə, daha sonra Cəbəl-i Tarix adlanacaq bölgəyə doğru yola çıxmış, yeni bir dövrün, baş verəcək böyük tarixi təbəddülatların, parlaq hadisələrin salnaməsini yazmışdır. Yaranan bu dövlətdə müxtəlif cəmiyyətlərin, fərqli ənənələrin, mədəniyyətlərarası əlaqələrin, müsəlman-xristian zəkaların bilik və təcrübələri ilə bənzərsiz, intellektual bir birliyin əsası qoyulmaqda idi. İspaniyada öncə "Valilər Dövrü" (Asru əl-Vülat 711–755) ilə bərqərar olan Əməvilər dövləti "ərəb cəmiyyətinin qızıl dövrü"nə, mühüm elmi və mədəni tərəqqilərin baş verdiyi bir zamana təsadüf edir. Məşriq, Məğrib və İbər (Aybiria) mədəniyyət bağları ilə Qurtuba (Cordoba), Ğarnata (Qranada) və İşbiliya (Sevilla) şəhərlərində təşəkkül etmiş memarlıq və sənət nümunələri, yaranan kitabxanalar və elmi fəaliyyətlər öncə İspaniyada müsəlmanların hakim olduğu bölgələrə, sonra tədricən Qərb dünyasına təsir etməyə başlamışdı (Yıldız, 2023, s. 294).

661–750-ci illərdə Əməvilər (əl-Əməviyyun) hakimiyyətinin ikinci yarısında – Yaxın Şərq daxili çəkişmələrlə çalxalandığı bir dövrdə iqtidar əleyhinə başlayan üsyanlar Əməvilərin süqutu, Abbasilərin hakimiyyətə gəlməsi ilə nəticələnir. Yeni iqtidarın ilk xəlifəsi – Əbü əl-Abbas əs-Səffah Əməvilər xanədanının bütün üzvlərinin öldürülməsini əmr edir. Bu qətliamdan qurtula bilən X Əməvi xəlifəsi Hişam ibn Əbdülməlikin nəvəsi, Müaviyə ibn Hişam oğlu Əbdürrəhman öncə İspaniyaya sığınır, az sonra bərbər və ərəb birlikləri ilə Əməvi valiliklərinin idarə etdiyi bölgəyə yürüş edib, 756-cı ildə Əndəlüs Əməvi Dövlətini qurur. Bu – İber yarımadasında gerçəkləşən fəthlərdən sonra yaranıb, 1031-ci ilə qədər müstəqil dövlət olaraq öz varlığını davam etdirən mühüm bir dövrün tarixi, silinməz izidir.

Əndəlüs xilafətinin ən parlaq dövrü III Əbdürrəhman (912–961) və II Hakimin (961–976) iqtidar çağları ilə anılır. İslam tarixində 632-ci Rəşidi Xilafətinin (Huləfa-yi Raşidin) ilk dörd xəlifəsindən birincisi olan Əbu Bəkrdən sonra "xələf" titulunu qazanmış Abbasilər, Əndəlüs Əməviləri və Fatimilər də öz adlarını tarixə yazmış oldular (Gümüş, 2023, s. 8).

III Əbdürrəhman və II Hakimin iqtidarı dövründə bu torpaqlarda mədəni və elmi fəaliyyətlər sürətlə artırdı. Artıq Əndəlüs Əməvilərinin paytaxtı olan Qurtuba Bağdad kimi ictimai əhəmiyyətli, mühüm bir mədəniyyət mərkəzinə çevrilirdi. Məğribdən Sabtah limanı ilə İspaniyaya yerləşən mədəniyyət kökləri öncə Hicaz, Misir, Şimali Afrika, daha sonra Yaxın və Orta Şərqdə elmi biliklərin, incəsənət və ticarətin mərkəzi olan İraq, Bağdad sivilizasiyalarına nüfuz edir, zamanla tarix səhnəsində iz qoyurdu. Əndəlüs Əməviləri yalnız İslam mədəniyyətinə mənsub elm qaynaqları ilə kifayətlənmir, qədim yunan və Roma mədəniyyəti – memarlıq, rəssamlıq sahələri ilə maraqlanır, körpü, bina, daşdan hörülmüş tağ və qübbələrin inşasında bu xalqların təcrübə nailiyyətlərindən yararlanırdılar (Özdemir, 2012, s. 9).

Coğrafi, etnik, dini və mədəni kökləri ilə həm İslam mədəniyyətində, həm də Avropa qitəsində unudulmaz izlər qoymuş Əndəlüs alimləri bu torpaqlarda onlarla birgə ömür sürən Hind və Zərdüşt bilicilərinin bilik və bacarığından faydalanıb, Şərq-Qərb mədəniyyətinin vəhdətini, cəmiyyət dəyərlərinin sintezini yarada bildilər. İctimai inkişaflarla İberiyada məhsuldar təfəkkür fəaliyyəti – tarix, coğrafiya, ədəbiyyat, dil, tibb, astronomiya və riyaziyyat, musiqi kimi elmlər böyük uğur qazandı, yeni nəzəri fikirlər axtarışı, elmin tətbiqi müddəaları genişləndi (Özdemir, 2012, s. 10).

Avropa tarixçilərinin "qaranlıq dövr" kimi səciyyələndirdiyi bu zaman dilimində Əndəlüs Əməvilər Dövləti II Hakem (Əməvi xəlifəsi – Mərvanilər) tərəfindən idarə olunur, "qızıl dövrü"nün uğurları ilə tanınırdı. Əndəlüsdə xristian krallıqları ilə bağlanmış sülh sazişi və qanunlarını mühafizə edən II Hakemin iqtidarı dövründə inşaat və kənd təsərrüfatı fəaliyyətləri güclənir, elmin, mədəni inkişafın əsasları qoyulurdu. Şərq və Qərb dünyasının nüfuzlu təhsil ocağı – müxtəlif dil, din və mədəniyyət ayrılığı olmadan yüksək maariflənmə məqsədilə inşa edilmiş Qurtuba mədrəsəsi II Hakemin mütərəqqi islahatlarındandır. Bu şəhərdə Bağdad və Qahirə ilə rəqabət aparacaq möhtəşəm bir kitabxananın təsis edilməsi, Bağdad, Şam, Qahirə və İskəndəriyyəyə xüsusi mütəxəssislər göndərib, oradakı bilik qaynaqlarının və onları tədris edən alimlərin bu kütləvi elm mərkəzinə – Qurtubaya gətirilməsi yenə II Hakemin Əndəlüs mədəniyyətinə bəxş etdiyi töhfələrdəndir (Yıldız, 2023, s. 16, 295).

Əməvilər dövründə Əndəlüsdə elmə verilən diqqət və önəm təhsil fəaliyyətini – bilik, bacarıq, dəyər və inanclar inkişafını təmin etmiş, onu çox mühüm səviyyəyə çatdırmışdır. İslam dininin bərqərar olduğu Yaxın və Orta Şərqdə təşəkkül etmiş fəlsəfə, riyaziyyat, kainat elmləri, tarix və musiqiyə duyulan böyük maraq Qurtuba alim və mütəxəssisləri tərəfindən də təqib edilir, bölgənin bilik anlayışları genişlənirdi (Bölükbaşı, 2024, s. 119).

Qərbdə kilsə xadimləri, zəngin və zadəgan insanlar arasında oxuyub yazanlar olsa da, elmə, biliyə həvəs kifayət qədər aşağı idi. Əndəlüs Əməvilər iqtidarı dövründə müsəlman məktəblərinin təhsil səviyyəsi hərtərəfli təmin edildiyi üçün İspaniyada savadlı insanların sayı Avropanın digər bölgələrindən xeyli yüksək idi. Əndəlüs mədrəsələri oxumaq arzusunda olanlara müasir universitetlər kimi xidmət edir, qadınların da təhsil ala bilməsinə şərait yaradırdılar. Burada təhsil üç mərhələ – təhsil əsaslarının qoyulduğu ibtidai təhsil, oxu-yazı dövrü; dini və humanitar elmlərin təməl səviyyədə tədris olunduğu orta təhsil dövrü; bir və ya bir neçə sahə üzrə ixtisaslaşmanı təmin edən ali təhsil dövrü ilə həyata keçirilirdi (Bölükbaşı, 2024, s. 120).

Qərb alimləri müsəlmanların mədəni və elmi araşdırmalarına yardım etmək məqsədilə bir çox yazılı əsərlərin tərcümələrində müştərək çalışmalar həyata keçirir, ərəb dilində qələmə alınmış ilkin mətnləri Siciliya (Siqiliya), Toledo və Kordoba şəhərlərinin elmi mərkəzlərində latın dilinə çevirirdilər. İber yarımadasında elmi-tədqiqat və tərcümələrə son dərəcə həssas yanaşan filosof, şair və musiqiçi şəxsiyyəti, eləcə də kraliyyət qiraətxanasında tarix, hüquq sahəsində səsləndirdiyi düşüncə və bilik üstünlüyü ilə tanınan Kastiliyalı X Alfonsonun (1221–1284) Əndəlüs sivilizasiyasının əsasını təşkil edən elmi əsərlərin latın və digər Qərb dillərinə çevrilməsində əməyi danılmazdır (Yıldız, 2023, s. 296).

**Tədqiqat**

İspaniyanın elm və mədəni həyatında iz qoyan Əndəlüs sivilizasiyası özünəməxsus quruluşu ilə dərk edilir, Yaxın Şərqdən və Avropadan öz sahələrinin mütəxəssisi olan alimlər Əndəlüsdə gəlir, burada təşəkkül etmiş dəqiq elmləri, iqtisadiyyat, siyasi, ictimai və fəlsəfi bilikləri, elmi təcrübə, əməli və nəzəri düşüncələri ilə zəngin olan kitabxanalarda çalışırdılar. Zamanla Şərq mədəniyyətinin ilkin mənbələri, "Beyt-əl hikmə" tərcümə mərkəzində yazılmış risalələr, nəzəri mühakimə və şərhlər yavaş-yavaş Əndəlüs kitabxanalarına intiqal edir, elmi inkişaf mərhələləri müəyyənləşirdi. Mövcud vəziyyət – mücərrəd məlumatların, əməli fəaliyyətlərin, imkan və təşəbbüslərlə əldə edilən elmi çalışmaların gerçəkləşdiyi qiraətxanalar İspaniyada da kitabxanaların qurulmasına zəmin yaratmış olurdu. Tədricən elmi sahələrin genişləndiyi Kordobada kitabxanalar qurulur, kitab sənəti ilə bağlı mətnləri tərcümə edən, əlyazmaları köçürən, mətnləri yazıb, kitabları cildləyən peşələr yaranırdı (Bölükbaşı, 2024, s. 121).

İslam alimləri tərəfindən "hikmət və fazillik ocağında" aparılan sərbəst elmi tədqiqat və tərcümələrlə ərsəyə gələn qədim yunan mənbələri, müfəssəl şərh və tərcümələr daha yaxşı anlaşılması üçün Qərb dillərinə çevrilirdi. Əndəlüs kitabxanalarında bilik, təhlil, təlim sistemi ilə tərcümə olunan Aristotel (Aristu), Evklid (İiklides), Platon (Aflatun), Ptolemey (Batleymus) traktatları Qərb dünyasının elmi fəaliyyətlərini sürətləndirir, orta əsrlər və reform arasındakı yeni dövrün – Renessansın əsasları qoyulurdu (Bölükbaşı, 2024, s. 121).

Abbasilər xilafəti ilə idarə olunan Yaxın və Orta Şərqdə "ədəb" və ona yaxın ədəbiyyat növləri ilə yanaşı, musiqi sahəsində də nəzəri düşüncələr inkişaf etməkdə idi. Bu tarixlərdə qələmə alınan ədəbi və musiqi risalələri bütünlükdə sənət nəzəriyyəsində baş qaldıran sorğuların elmi təhlilləri ilə gerçəkləşirdi. IX yüzillikdə şifahi ərəb ənənələrindən uzaqlaşıb, yeni təcrübələrlə təkmilləşən "ədəb" bir çox elmlərin baş qaldırmasına zəmin yaratmış oldu. Əvvəllər yalnız ilahiyyat və fəlsəfə bilikləri düzənli yazı üslubu ilə sətirlərə köçürülürdüsə, cərəyan edən yenilənmələrin təsiri ilə artıq bədii ədəbiyyat və musiqi mətnləri də öz xüsusi təsirini ortaya qoya bilirdi.

Əndəlüsdə isə xalqın qəlbinə yol tapan, ərəb dil qaydalarına çox da önəm verməyən, yerli şivə və tələffüzlə bədii yaradıcılıq xüsusiyyətlərini nümayiş etdirən "ədəb" – yerli şairlər tərəfindən "zəcəl" (xalq şeiri) adlandırılmışdı. Əyləncə məqsədilə xalq məclislərində zəcəl oxunsa da, saraylarda musiqi müşayiəti ilə səslənən mahnılar iki əsas bədii elementi ehtiva edən "müvəşşah" şeir üslubu ilə yazılırdı. Zamanla "müvəşşah" mətnləri ilə oxunan bəstələr Qərb dillərinə tərcümə olunur və İspaniyada böyük zövqlə dinlənən bu şeir növü XII əsrdə fransız mədəniyyətinə də sirayət edib, şeirlərin musiqi ilə oxunmasına maraq yaradırdı.

Əndəlüs idarəçiləri fəth etdikləri torpaqlarda daimi qalmalarının siyasi və hərbi sahədə olduğu kimi, elm, mədəniyyət və təhsil sahələrində də qazanacaqları uğurdan və həyata keçirəcəkləri təməlli fəaliyyət və inkişafdan asılı olduğunu bilirdilər. Təşkil olunan elmi səyahətlər, ticarət, yenilikçilik və məhsul alış-verişləri kimi fəaliyyətləri ilə əndəlüslülər tədricən heç tanınmayan Kordobanı Qərbin Bağdadına çevirdilər (Özdemir, 2012, s. 48).

Əməvilərin yaratdığı Əndəlüs təlim sistemini təşkil edən rihlə (köç, elm yolçuluğu) – təhsil səyahəti meydana çıxdı. Elmi şöhrəti olan şəhərlər əndəlüslü tələbələr üçün təhsil və təcrübə məkanına çevrildi. Əndəlüsün təhsil mərkəzləri olan şəhərlərdə, uzaq bölgələrdə təhsili genişləndirmək məqsədi ilə səfərlər təşkil olunur, "rihlə" vasitəsi ilə Şərqin elmi bilikləri Əndəlüsdən çox-çox uzaqlara yayılırdı.

Əmirlik və Xilafət dövründə ali təhsil mərkəzlərindən ən önəmlisi Qurtubada inşa edilən "Böyük Məscid" idi. Minlərlə tələbənin təhsil aldığı bu məscid bir universitet kimi Əndəlüs təhsil sisteminin əsası sayılırdı.

Elm və təhsilin mərkəzdən əyalətlərə yayılması ilə Əndəlüs ali təhsil müəssisələri say və keyfiyyətcə artmağa başlayıb, Əndəlüs Əməviləri dövründə (756–1031) Qurtuba; Mülu`k ət-Təvaif (Bəyliklər) dövründə (1031–1090) İşbiliya, Tuleytula, Sarakusta, Meriye (Almeria), Batalyevs (əl-Bəşərnəl), eləcə də Kordoba; Mürabitlər (1090–1147) dövründə isə artıq Ğarnata bir elmi cazibə mərkəzi olub, Əndəlüs cəmiyyətində ali təhsil müəssisələrinin bir parçasına çevrilmişdi (Bölükbaşı, 2024, s. 122).

Kastiliyanı qaranlıqdan çıxarmaq üçün təhsilli, sənətkar və dindar əhali yetişdirmək istəyən, müsəlman alimlərinin elmi araşdırmalarına diqqət və dəyər verən "Müdrik Alfonso" İspaniyanın Murcia şəhərində bir məktəb (mədrəsə) təsis etdi. Bu məktəbdə məntiq, mühəndislik, fəlsəfə, tibb, riyaziyyat və musiqi kimi müxtəlif elmlər tədris olunurdu. Mədrəsənin Əndəlüs təhsil sisteminə daxil edilməsinin əsas səbəbi Əndəlüs mədəniyyətinin toplanıb, müsəlmanların nüfuz və təsiri ilə genişlənməsi idi. Ölkənin ən böyük şəhəri olan Murcia Əndəlüs İslam hakimiyyəti dövründə mühüm elm mərkəzinə çevrilmişdi (Yıldız, 2023, s. 300).

İbər yarımadasının cənubunda, Aralıq dənizi sahilində "Cəbəlfaruh" adlı təpənin yüksəldiyi körfəz kənarında yerləşən Maləkada (Malaqa) Bəni Ahmar (Nəsrilər – 1238–1487) hakimiyyəti dövründə "Maləka Mədrəsəsi" inşa edilmişdi. Nəsrilər zamanında bu şəhər ikinci paytaxt kimi fəaliyyət göstərib, bölgənin elm, iqtisadiyyat və ticarət mərkəzinə çevrilmişdi.

Tunis sərhədlərinin Kayruan bölgəsində doğulub-böyüyən Fatimə əl-Fihri (ö. 880) də 859-cu ildə Məğribin Fəs şəhərində əl-Qaraviyyin mədrəsə-məscidini, dövrün mühüm təhsil ocağı hesab edilən bilik mərkəzini yaratmışdır. Bu hadisə İbn Abu Zər əl-Fasinin (ö. 1316) *Ravd əl-Kirtas* adlanan bəhslərində yer almaqdadır. Onun yazdığı bu məşhur və nüfuzlu məcmuədə Şimali Afrikada mövcud quruluşların əlaqə və münasibətlərindən, Məğribdə (Mərakeş) taxta çıxan ilk İslam xanədanı İdris ibn Abdullahdan, Əndəlüsdə hökm sürən bərbəri xanədanlıqları – Murabitlər, Muvahhidlər və Mərinilərin tarixi dönəmlərindən, onların iqtidar dövründə vaqe olmuş hadisələrin təfərrüatlarından söz edilir (Bölükbaşı, 2024, s. 123).

Daha irəliləyən tarixlərdə, 1349-cu ildə Bən-i Ahmar (Qızıloğulları – Nəsrilər) Dövlətinin mərkəzi olan Ğarnatada Əbu əl-Haccac I Yusif əl-Müəyyad-Billah təşəbbüsü ilə təsis edilən “Mədrəsə əl-Yusefiyya” ümumilikdə Ğarnata Əmirliyinin (1232–1492), İspaniya torpaqlarında son müsəlman dövlətinin əlamətdar tarixi, Əndəlüs sivilizasiyasının silinməz nişanələrindəndir. Bu gün Gözəl Sənətlər Akademiyası adlanan bu təhsil ocağı “Madraza Qranada”da bir zamanlar gənclərə tibb, kimya, fəlsəfə, astronomiya və dini elmlər üzrə təhsil verib, öyrənmə prosesində bilik, bacarıq, dəyər, inanc və vərdişlərin qazanılmasını təlqin etmişlər. XVI əsrin sonlarında Osmanlılar da Hənəfi təlimini yaymaq, “əl-məhəd” əqidəsini genişləndirib, Hafsid mədrəsələrindən, onların təcrübələrindən yararlanmağa başladılar. Bunlardan ən önəmlisi “Madrasa əl-Yusefiyya” idi (Bölükbaşı, 2024, s. 124).

Ğarnatada əsrlərlə əzəmətini qoruyub saxlayan “Əl-Hamra” sarayı da öz dövrünün ən mühüm kitabxanası olaraq əsalətini mühafizə etməkdədir.

Bu məqamda İntibah, yenilik və coğrafi kəşflərə töhfə vermiş, fundamental elmi tədqiqatları ilə Əndəlüs mədəniyyətinin inkişafında müstəsna xidmətləri olan, bacarıq və düşüncələri ilə fərqlənib, həqiqətləri söyləyən ilk Əndəlüs mütəfəkkir və filosoflarının fəaliyyətlərindən söz etmək istərdik.

Əndəlüsdə ilk müsəlman filosofu kimi tanınan Muhamməd ibn Yəhya ibn əs-Saiq ibn Baccə (ö. 1138) əsrlərlə davam edəcək bir ənənənin təməlini yaratmış, özündən sonra gələn daha iki filosofun (İbn Tüfeyl və İbn Rüşdün) rasionalist düşüncələrinə işıq salmışdır (Akyol, 2011).

Yaşadığı dövrdə baş verən siyasi, ictimai və mədəni dəyişikliklərə laqeyd qalmayan İbn Baccənin doğulduğu dəqiq tarix bəlli olmasa da, 1077-ci ildə Əndəlüsdə müsəlmanların hökm sürdüyü Saraqustada (Zaraqoza) tucibilər sülaləsində dünyaya göz açdığı ehtimal edilir.

XI əsrin birinci rübünə qədər Saraqustanı idarə edən ərəb əsilli tucibilərə mənsubiyyətilə bilinən İbn Baccə gəncliyini doğma torpaqlarda keçirməklə ənənəvi fənlər üzrə təhsil almış, daha sonra İşhbiliaya gedib, dövrün tanınmış alimləri ilə fəlsəfə, fizika və astronomiya üzrə bilgilərini artırıb, özünü elmi tədqiqatlara həsr etmişdir. Haqqında söz edilən mənbələrdə İbn Bəccənin siyasət və fəlsəfə sahələrindəki üstünlüyü ilə yanaşı, şeir və musiqidə də özünəxas, həssas, məntiqli düşüncələri ilə seçildiyinə işarə edilir (Köroğlu, 2022).

Orta əsrlər tarixini qələmə alan biblioqrafların qeydlərində onun riyaziyyat və astronomiya fənlərinə olan heyranlığından savayı, uzun gövdəsində səs telləri daşıyan lafta və ud ifaçılığından, şairlər divanında söylədiyi qəzəllərin vəzn və qafiyəsinə, ifadələrin bəlağət və fəsahət qanunlarına diqqət yetirməsindən bəhs olunur. İbn Baccənin bacarıq nümayiş etdirdiyi başqa bir sahə isə çox dəyərləndirdiyi tibb idi.

İbn Baccədən təhsil alıb, ustadının rasional düşüncələrini daha geniş tədqiqatları ilə davam etdirən İbn Tüfeyl risalələrində məlum dövrə qədər Əndəlüsdə fəlsəfi intizamla yetişmiş İbn Baccənin olduqca müdrik bir varlıq olduğunu, lakin vaxtsız ölümü ilə daha mühüm əlyazmalarının məhdud çevrələrdə yox olmasını qeyd edir (Köroğlu, 2022, s. 1680).

Əndəlüsdə İbni əs-Saiq, Qərb ədəbiyyatında isə Avempace olaraq anılan İbn Bəccə zəngin fəlsəfə mühitində böyüyüb, Şərq və Qərb mənbələrini öyrənmək imkanı qazanmışdır. Aristotelin (ö.e.ə. 322) əsərlərini tədqiq edib, öyrəndiyi kimi, İslam dünyasının böyük filosofu, ikinci müəllimi – Fərabidən (ö. 950) də eyni dərəcədə bəhrələnmişdi. İslam fəlsəfəsinin və Meşşai (peripatetik) ənənəsinin davamçısı olan İbn Baccə İslam fəlsəfəsindən aydınlandığı kimi öz düşüncələrilə Qərb fəlsəfəsinin maariflənməsinə də təsir edə bilmişdi. Böyük filosof bir orta çağ mütəfəkkiri kimi fəlsəfənin bütün sahələrinə meyil etsə də, onun rasional təfəkkür metodunun həm İslam, həm də Qərb dünyasında

diqqət çəkib, qəbul olunmasının əsas səbəbi təbiət fəlsəfəsi üzrə fəaliyyəti və bu sahəyə gətirdiyi yeniliklər idi (Masûmî, 2020, s. 291–306).

İbn Bəccənin böyük marağı olan fəlsəfə araşdırmalarında insan-varlıq məfhumunun üç dərəcəsi – cismanilik (maddilik), mənəviyyat və rasionallıq səviyyələri müəyyən edilmişdir. Onun təbiri ilə, insan səadətə yetişmək istəyirsə, ilk iki mərhələni başa vurub, səy və diqqətini son dərəcə cəmləməlidir. İnsan cismani hərəkəti (davranışları) ilə maddi varlığını yaradır, ruhani əməlləri ilə şərəfli bir məqama yetişir, əqli düşüncələri ilə ilahi keyfiyyətlər qazanır (Erkoçoğlu və Arslan, 2009).

İnb Bəccə haqqında olan bəhslərdə müxtəlif dövrlərdə ondan dərs almış tələbələrindən, özəlliklə Əndəlüsdə elmi sahələrdə fəaliyyət göstərən İbn əl-İmamdan söhbət edilir. Mənbələrə görə, İbn Baccənin əsərləri məhz onun sonsuz əməkləri sayəsində günümüzə gəlib çatmışdır (Aydınlı, 1991, s. 208).

İbn Bəccənin siyasi, məntiqi və metafizik təhlillərini işıqlandıran ən mühüm – "Tədbir əl-Mütəvahid" və onun kimi şöhrət qazanan "Risalət əl-Vəda", "Kitab ən-Nəfs", "Risalət əl-İttisali əl-Akl bi əl-İnsan", "Əl-Vukuf alə` əl-Akl əl-Faal", "Fi əl-Gayəti əl-İnsaniyyə", "Fi əl-Vəhdə vua əl-Vahid", "Fi əs-Saadəti əl-Mədəniyyə vua əs-Saadəti əl-Uhraviyyə", "Kitab ən-Nəbat", "Kitab əl-Kavn vua əl-Fəsad", "Şarhu li Kitab əs-Səma ət-Tabii", "İrtiyaz fi Tasavvuri əl-Kuvve əl-Mütəhayyilə vua ən Natika" əsərləri onun mücərrəd düşüncələri, fəlsəfi təlimləridir.

Qeyd edək ki, İbn Baccənin musiqi ilə bağlı tədqiqatlarında günümüzə qədər gəlib çatmış iki sərbəst mövzu – "Kitab ən-Nəfs"in V bölümündə "Səs" (eşitmə, səs tənzimi və keyfiyyətlə bağlı tövsiyələr) və "Əlhan" (nəğmələr) adlı mövzulardır.

İbn Bəccənin ayrı-ayrı elm sahələrini işıqlandıran Aristotel və əl-Fərabi traktatlarına ithaf etdiyi təfsirləri, məntiq, bilik nəzəriyyəsi, əxlaq və siyasi düşüncə ilə bağlı bəyanları bir tərəfdən antik fəlsəfə irsini dərk edib, şərh etmə qabiliyyətini üzə çıxarsa da, digər tərəfdən öz dövründə hələ də həllini tapmayan qeyri-müəyyənliyin yeni prizmadan həll etmək səylərini ortaya qoymuşdur (Köroğlu, 2022).

Onun siyasi və əxlaqi fikir sahəsinə verdiyi ən diqqətçəkən fəaliyyətlərindən biri Platonla (ö.e.ə. 347) başlayıb, Fərabi təsiri ilə təkmilləşən siyasi baxışları – "həqiqi səadət yalnız mükəmməl dövlətlərdə olur" kimi fəlsəfi mühakimələri öz şərh üslubu ilə inkişaf və həll etməyə çalışdığı "Tədbir əl-Mütəvəhhid" adlı layihəsidir (Uyanık və Akyol, 2017, s. 19).

Əndəlüsdə öz dövrünə qədər elmi və fəlsəfi fəaliyyətlərin inkişafını araşdıran İbn Tüfeyl (ö. 1185) "Hayy bin Yakzan" fəlsəfi romanının müqəddiməsində bu fikirləri paylaşır: "Ən-Dulusda məntiq və fəlsəfə geniş yayılmadan əvvəl buradakı mötəbər insanlar bütün ömürlərini etiqadla keçirirdilər. Onlar bir çox riyaziyyat elmləri ilə məşğul olub, bu sahədə kamilliyə çatsalar da, hüdudu aşa bilmirdilər. Zamanla riyaziyyat elmlərinə bir az məntiq əlavə etdilər, fəqət mükəmməlliyə çatacaq qədər yüksələ bilmədilər. Daha sonra gələnlər fəlsəfəni dadsalar və həqiqətə yaxın olsalar belə, İbn Saiqdən daha güclü, daha sağlam məntiqə yetişən kimsə olmadı".

Əndəlüsün iki önəmli filosofu (İbn Baccə və İbn Tüfeyl) bir çox şərqşünas alimlər tərəfindən fəlsəfənin müxtəlif istiqamətləri ilə hələ də tədqiq edilməkdədir. Elm və ruh nəzəriyyəsi, təlim və təbiət fəlsəfəsi, metafizika və siyasi düşüncə kimi bir çox sahələrə ilkin töhfələr verib, dövrün intellektual və siyasi iqlimi ilə ayaqlaşan, Qərb düşüncəsi və İslamdan sonrakı rasional elmlərin təsiri ilə varlığın həqiqət-gerçəklik təlimlərini, tərif və mühakimələrini öz məntiq intizamı ilə işıqlandıran bu iki "feylesüf" – "hikmət sevən"lərin yaradıcılığı yüzillər keçsə də, yenidən tədqiq edilməkdə, yenidən öyrənilməkdədir.

Əbu Bəkr Muhamməd ibn Əbdülməlik ibn Muhamməd ibn Tufail əl-Kaisi əl-Əndəlüsi (ö. 1185).

İbn Tüfeyl 1492-ci ilə qədər Ğarnata əmirliyi, yaxud Bəni Ahmar (Qızıloğulları) dövlətinin mərkəzi olan Qranadada, Vadi əl-Aş (Quadis) qəsəbəsində doğulmuşdur. İbn Tüfeylin təhsil həyatı haqqında ətraflı məlumat olmasa da, onun dini elmlərlə yanaşı, tibb və fəlsəfəyə maraq göstərməsi haqqında olan gerçəklər arasında yer alır. Oxuyub düşüncələrini bildirdiyi, bəzən hətta mühakimə etdiyi fəlsəfi risalələr içərisində İbn Bəccəyə aid olanlar yaradıcılığında xüsusən mühüm yer tutur.

Gənc yaşlarında təbib, az sonra cərrah kimi çalışdığı Ğarnatada dövlət rəsmilərinin diqqətini çəkən İbn Tüfeyl 1154-cü ildə İspaniyanın Şimali Afrika ilə bağlantısının bir parçası olub, elm,

mədəniyyət və ticarət mərkəzləri ilə tanınan iki önəmli şəhəri – Səbta (Ceuta – latınca yeddi təpə, qardaş anlamı daşıyan – Sebtem Fratres) və Tanca valiliyində özəl katib olaraq çalışmışdır. Muvahhidlər dövlətinin ikinci əmiri olan Əbu Yaqub Yusifin sarayında baş təbib vəzifəsinə təyin olunması onun təlim, bacarıq və çalışmasında əsas dönüş nöqtəsi oldu. Fəlsəfəyə böyük maraqla yanaşan xəlifə İbn Tüfeyli öz himayəsinə alıb, çalışması üçün rahat bir iş ortamı yaratmışdı. Bu xüsusi diqqətin səbəbi Əbu Yaqubun İbn Tüfeyl zəkasına dərin ehtiramı və onunla eyni qəbildən olması ilə izah edilir. Söylənənlərə görə, saray divanında vaqe olan fikir mübadilələrinin birində Sultan ondan Aristotel toplusunu şərh etməsini istəmiş, o isə yaşlı olduğunu səbəb gətirib, bu iş üçün gənc İbn Rüşdü tövsiyə etmişdir (Uyanık və Akyol, 2017).

İbn Sinanın da tədqiqatlarını dəyərləndirən İbn Tüfeyl onun düşüncə və şərhlərini iki fərqli fəlsəfi xətlə izlədiyini qeyd edir. Belə ki, birinci nöqteyi-nəzəri ilə o, İbn Sinanın “Kitab əş-Şifa” risaləsində Aristotel şərhlərini mədh edib, əsas düşüncələrində onunla daim həmfikir olursa, daha sonra Aristotel məntiqi ilə yola çıxan İbn Sinanı öz ilkin fəlsəfi mövqeyini açıqlayan “Əl-Fəlsəfə əl-Məşrikiyyə” əsəri ilə anlamağa çalışır. İbn Tüfeylin iddiasına görə, İbn Sina özü də “Kitab əş-Şifa”nın müqəddiməsində fəlsəfi həqiqətlərin onun Meşşai (peripatetik) üslubunda yazdığı digər əsərlərindən fərqli olduğunu bəyan etmişdir (İbn Tüfeyl, 2020; İbn Tüfeyl – Fəlsəfəsi).

İbn Tüfeyl ilk Əndəlüs filosofu olaraq qəbul edilən İbn Bəccənin və bu coğrafiyada geniş nüfuz sahibi olmuş Ğazzalinin (ö. 1111) şərhlərini də özünə xas təhlil və təfsirləri ilə qiymətləndirir. Filosofun fikrincə, İbn Bəccənin bilgi, əxlaq və səadət təzahürü olub, fəlsəfə və təsəvvüf cığırında insan zəkasının fəal ağılla yaratdığı birlikdən bəhs edən “Risalət əl-İttisali əl-Akl bi əl-İnsan” əsərində metafizik (fövqəltəbii) biliklər sırf nəzəri səylərlə əldə olunmuş bir qavram – varlıq, məkan, səbəb və fəlsəfənin vermiş olduğu dəyər və üstünlükdür (İbn Tüfeyl, 2020).

Ustadın Şərq fəlsəfəsindən öyrəndikləri nəzəri düşüncədən kənar mənəvi təcrübələrlə bağlı olub, müşahidə, zövq və səfa əhli üçün məlum ölçülərlə ifadə oluna bilməyən mənəvi təcrübələr məcmusudur. Onun “mövcudluq” nəzəriyyəsinin fəlsəfi araşdırmaları, “mövcud olan hər şey” anlayışı – (bütün varlıqlar) kamillik zirvəsində azad bir Qüvvənin əsəridir və onların hər biri bu sənətinin fövqəladə gözəlliyini, onun hikmətinin genişliyini və elminin incəliyini nümayiş etdirir.

Təbiət hadisələrinin ənənəvi səbəb və qanunauyğunluqlarını qəbul edən İbn Tüfeyl insan vücudunda olduğu kimi, kainatda da zahiri çoxluqdan kənar bir vəhdət olduğunu qeyd edir. Belə ki, fərqləri nəzərə alan filosof bütün təbii varlıqların şüursuz (dərk etməyən) bir çoxluq, ortaq keyfiyyətlərin olduğu təbiətin isə tam bir vəhdət nümayiş etdirdiyini yazır. Onun fikrincə, təbiətdəki cansız cisimlərin, bitki və heyvanların ümumi keyfiyyətlərinin başlanğıcı surət növləri ilə səciyyələnir. Bu səbəbdən müəyyən növə mənsub olan bütün fərdlər ümumi hərəkət və keyfiyyətləri baxımından bir məna ilə iştirak edə bilir (Uyanık və Akyol, 2017).

İbn Tüfeylin digər bilik sahələri ilə yanaşı, təbabət elmində də nəzəri-təcrübi araşdırmalarını davam etdirdiyi anlaşılır. Onun İbn Sinanın “əl-Qanun fit-Tibb” traktatına nəzirə olaraq yazdığı “əl-Külliyyat fit-Tibb” əsəri üzərində İbn Rüşdlə apardığı birgə müzakirələri və elmi təhlillərlə əldə olunan çoxmənalı nəticələr hər iki filosofun haqqında yazılmış bəhslərdə yer almaqdadır.

Özündən əvvəlki fəlsəfi ənənələrə qısaca toxunub, sonra onları Şərqin “İşraki hikmət” (aydınlanma) anlayışı ilə dəyərləndirən İbn Tüfeylin bizə gəlib çatan yeganə əsəri – “Hay ibn Yaqzan” xəyali məntiqlə qələmə alınmış orta əsrlərin fəlsəfi mətnidir.

İbn Tüfeyl düşündüklərini yazarkən yetərsiz məlumatlıların maraq göstərdiyi bu fəlsəfi hekayə ilə sanki qəhrəmanlarını varlıq, dəyər (təbiət, cəmiyyət), insan təfəkkürü və idrak mövzuları ilə bağlı sorğu-sual edir, onların yanlış yola düşməmələri üçün xətaların önünü almağa çalışırdı (Uyanık və Akyol, 2017; İbn Tüfeyl – bilik nəzəriyyəsi).

Sözügedən “Hayy ibn Yaqzan”ın məzmunu qısaca belədir: Hindistan adalarının birində ata-anasız bir uşaq dünyaya göz açır. Adəm kimi torpaqdan yaranıb, heç bir dil və mədəniyyətlə doğulmayan bu kiçik varlıq meşədəki bir ceyranın südü ilə bəslənib, böyüyürdü. Bir müddətdən sonra yeriməyə başlayan kimsəsiz Hayy günlük qidasını ağac şirələri və meyvələrlə təmin etməyi öyrənir. Adada vəhşi heyvan olmadığı üçün o, heç bir təhlükə ilə qarşılaşmır. Hər il bir az böyüyüb, mühitə alışan Hayy meşədə yalnız onu himayə edən ceyranın deyil, başqa heyvanların da olduğunu fərq edib,

həyatda qalmaq naminə bütün işlərini təkbaşına görməyə çalışır. İllər keçir, ceyran yaşlanır, indi Hayy onun qayğısına qalır, onu qoruyur. Lakin ona əziz bu varlığın ölümü ilə həyatda bir gün bütün canlıların sonunun qaçınılmaz olduğunu anlayır (İbn Tüfeyl, 2020; Hayy ibn Yaqsan).

İbn Tüfeyl hekayənin müqəddimə bölümündə mövzunun tarixini, dövrü-zamanını dəyərləndirmişdir. Bu giriş hekayədə vaqe olanların anlaşılması üçün sanki bir bələdçidir. Yunan mənşəli alleqorik məsnəvi qəhrəmanları "Səlaman və Absal" hekayəsi isə burada əsas mövzuya əlavə olunmuş bir hissədir. Rəvayət əsnasında müəllif bəzən əlavə mövzu ilə müdaxilə edir, bəzən oxucu ilə dialoqa girir, yönləndirir, cavablayır, bəzən isə məzmunu genişləndirir. Əsər çox sadə, son dərəcə anlaşılan bir dillə qələmə alınmışdır. Metafizika (tanrı, varlıq, yaranış, məkan, zaman, səbəb) mövzuları izah edilən düşüncələrlə müzakirə olunur. Bu baxımdan, əsərdə yer alan hər bir mülahizə mövzunun başqa bir ölçüsünü şərh etmə məqsədi daşıyır (İbn Haldun, 2017). Əsərdə Hayyın Yaradana qovuşma səylərinin ifadəsi ilə mövzuya daxil edilmiş qütsi (müqəddəs) hədisə və ona müvafiq ayətə işarə edilməkdədir. Qəhrəmanın oda, günəşə və səma cisimləri kimi bəzi varlıqlara duyduğu heyranlıq Quranda bəhs edilən Hz. İbrahimin (a.s.) axtarışlarını (Qurani-Kərim; Ənam 6/74–79), Allaha olan sevgisini xatırladır.

Əsərin sonunda müəllif İbn Sinanın "İşrakiyyə" (günəş doğmasına təqabül edən zaman dilimi – görünən həqiqətlər) hikmətinin üzərindən məxfiliyi qaldırır, insan zehnində fəlsəfi və metafizik düşüncələrin yaranması üçün müəyyən bir təlim, yaxud məfhum olmadan da, varlıq, bilik, həqiqət və ağılla bağlı qavrayışın mövcud, ya da fitri ola biləcəyini bəyan edir (Uyanık və Akyol, 2017).

Mahiyyət etibarilə xarakterik bir roman olan "Hayy ibn Yaqzan"ın qısa müqəddiməsində İbn Tüfeyl İslam elm camiəsinin fəlsəfi tədqiqatlarını, nəticə, nəzəriyyə səviyyəsini tənqid etməklə müsəlman toplumlarında bu elmin inkişaf edə bilməməsinin səbəblərinə toxunur. VIII əsrdən İslam dünyası ilə bağlılıq yarada bilən fəlsəfənin, dini müddəalar xaricində fərdi düşüncə hürriyyəti ilə biri digərinə təsir edən sahələri önə çıxarmaqla "bacarıqlıların asanlıqla kəsib yırta biləcəyi, səriştəsi olmayanların isə qaldıra bilməyəcəkləri qədər ağır və qalın gördükləri nazik örtük" bənzətməsi və "cəsarətli" eyhamı ilə müəllif sanki ətrafı məlumatlandırmağa çalışmışdır. Bu məqsədlə İbn Tüfeyl, Hayyın özünü dərk etməsini – ağıl və vəhy (işarə, təlqin) ikiliyi arasındakı fərqləri qabardır və bəzən də bulandırırdı. Amma bunları edərkən ağlını – qavrama və nəticəyə gəlmək qabiliyyətini, düşüncə gücünü kənara qoymurdu (Akpınar, 2013).

Fəlsəfə və təsəvvüf təlimlərini rəmzi dillə ifadə edən İbn Tüfeyl bu əsərində insanın təlim almadan müşahidə və düşüncə ilə kamilləşmə istəyini, seyr etmə, öyrənmə və təcrübə yolu ilə əldə edilən bilginin vəhyə zidd olmadığını, hər kəsin öz fərdi inkişafı ilə bilik, bacarıq qazanma arzusunu təqdir etmişdir.

İbn Tüfeylin din və fəlsəfə arasında yaratmaq istədiyi vəhdət (bölünməzlik) və üsul (tətbiq) fərqliliyi, eləcə də onların müştərək nöqtələri haqqında söylədiyi fikirlər hər mənada xələfi İbn Rüşdə də təsirsiz qalmamışdır. Din və fəlsəfə qardaşlığına xüsusi önəm verən İbn Rüşd "Kitabu Fasli əl-Makal vua takriru mabeynə əş-Şəria vua əl-Hikmə minə əl-İttisal" adlı əsərində din və dünya (fəlsəfə), ağıl və nəql, elm və iman, şəriət və hikmət arasında uzlaşmanı müdafiə etməklə İslam (din) və fəlsəfə (elm) arasındakı uyğunluğu mətnlər və müqayisəli təhlillərlə aydınlatmağa çalışmışdır (Kutluer, 1999).

Orta əsrlərdə yaşamış İbn Abu Üseybia (ö. 1270) öz biblioqrafik kitabiyyatında İbn Rüşdün "Müracaat vua məbahis beynə Abu Bəkr İbn Tüfeyl" və "Beynə İbn Rüşd fi rəsmihi liəd-dəva fi kitabi əl-müvsum bi`əl-Kulliyyat" adlı risalələrinə işarə edərək, bilik yayıcıları – İbn Rüşd və İbn Tüfeylin tez-tez yazışdığını, fəlsəfənin müəyyənedici həqiqətləri ilə mahiyyətinə varan bu iki Əndəlüs mütəfəkkirlərinin daim fikir mübadiləsində olduğunu qeyd edir.

Abu əl-Vualid Muhamməd ibn Əhməd ibn Muhamməd ibn Rüşd (1126–1198).

İspaniyanın Kordoba şəhərində görkəmli hüquqşünasları ilə tanınan bir ailədə böyüyən İbn Rüşd Meşşai (peripatetik) məktəbinin son nümayəndəsi olub, filosof, hüquqşünas və təbib kimi nüfuz qazanmışdır. Əndəlüsdə böyük nüfuz sahibi olan həm babası, həm də atası baş hakim məmuriyyətində çalışaraq, yüksək cəmiyyətin hörmət və etibarını qazanmışdı. Üstün təhsilalma imkanı olan İbn Rüşd

tədrisini fəlsəfə ilə başlayıb, tibb, fizika, astronomiya, hüquq və din elmləri üzrə davam etdirmiş, bu səbəbdən ömrünün çox hissəsi Qurtuba, Məğrib və İşbiliyada keçmişdir.

İbn Rüşd ailəsindən miras qalmış hakimlik ənənəsini davam etdirməklə yanaşı, fəlsəfi tədqiqatların mərkəzi olan Kordobada – Şərq və Qərb körpüsü olan Əndəlüsdə daha öncə təməli qoyulmuş bilik toplusunu, özəlliklə fəlsəfi kitabları dəyərləndirmiş, daha sonra geniş elmi tədqiqatları ilə müxtəlif bilik sahələrinə bənzərsiz əsərlər bəxş etmişdir.

İslam dünyasının böyük alimlərindən olub, Qərbdə Aristotel əsərlərinin rasionalist fəlsəfi təmayülünün, peripatetik baxışlarının tərcümanı kimi tanınan "Averroes" (İbn Rüşdün ölümündən sonra Averroizm) İbn Rüşdçülük hərəkatı ilə XIII–XVI əsrlərə qədər Latın xristian sxolastik düşüncəsinə – katolik ilahiyyat və Aristotel fəlsəfəsi birliyinə, Qərb "məktəb fəlsəfəsinə" böyük təsir göstərmişdir (İbn Rüşd həyatı və fəlsəfəsi, 2021).

Aristotelin məntiq toplusuna şərhlər yazmaqla yanaşı, bu sahədə müstəqil əsərlər yaradan İbn Rüşd öz şərhlərində klassik Aristotel təfsirçiləri və müsəlman filosoflarının məntiqlə bağlı yaradıcılıqlarını araşdırıb, olduqca fərqli bir üsul inkişaf etdirmişdir.

"Cəmiyyət təbiəti", "dövlət fəaliyyəti", "insanın ictimai həyatı" məzmunlu şərhlərində orta yolu təqib edən davranışları ilə fəzilət kimi görüb, mötədillik və ədalətliliklə aydınlanan Aristotel mətnlərinin Qərbdə yayılması İbn Rüşdün fəlsəfi mətnlərində də bənzər düşüncələrə yol açmışdı. Bu səbəbdən Əndəlüsdə İbn Rüşdün əsərlərinin geniş mövzuları əhatə edən, fəlsəfənin predmeti olan metafizikanı təbiətüstü aləmlə bağlı təsəvvürlərini açıqlayan Aristotel düşüncələri ilə izlənilməsi çox zaman mütənasib, başqa sözlə, oxşar idi (İbn Rüşd, 2016, s. 11).

İbn Rüşd kiçik təfsirlərdən bəzilərini öz sözləri ilə yazmış, orta təfsirlərdə Aristotelin cümlələrindən istifadə etməklə, böyük təfsirlərdəki düşüncələri təfərrüatlarla anlatmış, bəzən də ilk düşüncələri dəyişmişdir. Belə ki, o, "südur" (İlahi yaradılış) mövzusunda Farabi və İbn Sinanı dəstəklədiyi halda, metafizikaya dair şərhlərində sabit ulduzlar mühitini qəbullanmayıb, iki ixtiyari nöqtənin sahə cisimlərini, fiziki varlıqların mövcudluğunu inkar etmişdir. Öncə "səmavi ağıllar" və "ilk səbəb" arasındakı "əlaqə" ilə razılaşan İbn Rüşd daha sonra mətn arasında südur idarəetmə nəzəriyyəsinin doğru olmadığını vurğulamışdır (Davidson, 2022, s. 450).

İbn Rüşd mövcud olanın ümumi şərtlərini və varlıq meyarlarını incələyən "Metafizika" ilə bağlı mövzulara "fəal ağıl"ı bir fəaliyyət dərəcəsi kimi daxil etmir. O, Fərabi və İbn Sinadan səma cisimlərinin axınını, başqa sözlə, zaman, məkan və onların bütün tərkib hissələrini əhatə edən Kainatın ən yüksək nöqtəsindən, qeyri-mükəmməl sahəsinə qədər keçid istiqamətlərini, yaxud bu fəaliyyət daşıyıcılarını rədd edir və bu səbəblə sələflərindən fərqlənirdi (Davidson, 2022, s. 451).

İslam fəlsəfəsində din və ümumən fəlsəfə əlaqəsinin mahiyyəti ilə bağlı müzakirələri İslam dünyasının fəlsəfi fəaliyyət dövrünə aid etmək olar. İlk dəfə əl-Kindi (ö. 866) tərəfindən bəhs edilən bu əlaqə müxtəlif filosoflar tərəfindən fərqli anlayışlarla şərh edilmişdir. Belə ki, düşüncələri ilə böyük dəyişmə və inkişafı önə sürən Ğazzali "Təhafut əl-fəlasifə" və "əl-Munkiz minə əd-dəlal vua əl-mufsıh ani əl-əhval" traktatlarında bu sahədə özündən öncəki fəlsəfə tədqiqatçılarının şərhlərini təhlil edib, İslam dünyasında hakim fəlsəfə ənənəsi olaraq qəbul edilmiş Meşşai fəlsəfəsi təmsilçiləri – əl-Farabi və İbn Sina düşüncələrini qəbullanmamış, onların yaradılış və südur nəzəriyyəsini sərt məntiqlə tənqid etmişdi. Ğazzali fəlsəfəsinin mənbəyi olan əks inanc və düşüncələr İslam fəlsəfə ənənəsinin sonuncu nümayəndəsi İbn Rüşdün "Tahafut ət-Tahafut əl-Fəlasifə" əsəri ilə cavablandırılmışdı. Aristotel fəlsəfəsi izində olan Meşşailiyə, rasional fəlsəfə cərəyanına yönələn kəskin tənqidlərə cavab vermək, eləcə də Əndəlüs fəlsəfəsini əks təsirlərdən qorumaq məqsədilə "Faslu'l-makal fi takriri ma beynə əş-şəri'a vua əl-hikmə minə'l-ittisal (Fəlsəfə və din əlaqələri) əsəri də bu məqsədlə qələmə alınmışdır. İbn Rüşdün "fəal" (aktiv) ağılla bağlı fərqli düşüncələri, "Metafizika", eləcə də, Ğazzalinin "Filosofların uyğunsuzluğu" risaləsinə yönələn tənqidi bəyanları da bu əsərlərdə yer almaqdadır (Davidson, 2022, s. 451).

İbn Rüşdün son traktatlarında "ruhun istəyi" mövzusu öz əhəmiyyətini qoruyub saxlamaqla həyatın (var olmanın) davamını təmin edən bir amil kimi diqqətə alınmışdır. O, kainatı canlı varlıqla müqayisə edir, həyatını sürən bir canlının sahib olduğu varlığını təmin edən ruh və ağlın olduğu kimi, kainat varlığını hifz edən, onun birlik və bütövlüyünü təmin edən sonsuz bir güc və amalı müdafiə

edirdi. Meşşai (peripatetik) məktəbinin önəmli təmsilçilərindən olan filosof İlahi elmlərlə varlıq arasında daim bağlılıq yaradır, bu elmi "varlıq səbəbi" olaraq görür, "fövqəladə qüvvə" düşüncəsini müdafiə edirdi. Belə ki, İslam fəlsəfəsində axirətin – möminlərin Allaha qovuşacaqları günün ruhaniliyini müdafiə edən Meşşai ənənəsində də "yaradılış" mövzusu müzakirə olunduğu zaman İlahi elmlərlə varlıq arasında mütləq bir mövcudiyyətin olduğu bilinməkdədir (Tortuk, 2016, s. 75).

Orta əsrlərdə filosof və ilahiyyatçıların ən çox üzərində dayanıb, müzakirə etdikləri "İlah"a aid xüsuslar, "gizli və duyğu idrakından uca qavrayış", "elm", başqa sözlə, "ilahi bilik"lər idi. Burada Yaradan və yaradılan dünya arasındakı bağlılıq, "İlahi hisslər və onlar (hisslər) xaricində olan bütün varlıq və hadisələr" mövzusu dinlə fəlsəfəni uzlaşdıranlar tərəfindən ilahi biliklərlə müdafiə edilirdi (Tortuk, 2016, s. 75).

Tərcümə və təfsirləri ilə Aristoteli Avropaya yenidən tanıdan, onun fəlsəfi sistemini İslam düşüncəsinə köçürən İbn Rüşd, yaxud Avveroes yazdığı "Kitab əl-kəşf ən Mənahic əl-Adilla fi əqaid əl-millə" ("Etiqadda fəzilətli üsulların aşkarlanması"), "Bidayatu əl-Müctəhid vua Nihayatü`l Muktasid" ("Məzhəblərarası müqayisəli İslam hüququ") əsərləri ilə də İslam fəlsəfəsi, din və fəlsəfə müzakirələrinin mərkəzində olmuşdur.

*İbn Xaldun Əbu Zeyd Əbdürrəhman ibn Muhamməd ibn əl-Hədrami (1332–1406)*

İslam mütəfəkkiri (tarixçi, filosof, siyasətçi və dövlət xadimi) İbn Haldun Əndəlüsün fəthi zamanı İbər yarımadasının cənubunda Bəni Birzalə xanədanı tərəfindən yaradılmış bərbəri tayfa dövlətinin Karmuna (Carmona) şəhərində məskunlaşan Vail ibn Həcərin nəvələrindəndir. Mənbələrdə soyunun Yəməndəki ərəb tayfası Hadramutlara uzandığı və İslam fəthinin əvvəlində İspaniyaya köç etdiyi yer alır. Bir başqa deyimə görə, Mədinədə Hz. Peyğəmbəri (s.a.s.) ziyarət edərkən Rəsulullahın söhbətlərinə qatılıb, onun xeyir-duasını almış 70 hədis nəql edən "Əshab-i Kiram" – sahabilərdəndir (İrğat, 2018).

"Ailədən Əndəlüsə ilk hicrət edən Xalid ibn Osman ibn Hani olmuşdur. Qısa müddətdə Xalid əd-Dəhhil adı ilə şöhrət qazanan Xalid Əndəlüsdə "Xaldun" olaraq tanınır və az sonra soyunu "Bəni Xaldun" mənsubiyyəti ilə şərəfləndirir. Bir müddət Karmunada məskunlaşan Xaldunilər çox keçmir ki, İşbiliyaya yerləşir, burada möhtərəm bir ailə kimi həm Əndəlüs, həm də Şimali Afrikanın elmi, siyasi və mədəni həyatında mühüm işlərə qatılırlar" deyən tarixçi İbn Həyyan əl-Qurtubi ailənin siyasət və elmdəki şöhrətinə işarə edir ("İlk sosyolog: İbn-i Haldun'un kısaca hayatı" [PDF], n.d.). Nobel Yayıncılık.

İlk dərslərini dövrün tanınmış müəllimlərindən, atası Muhamməd ibn Arabi əl-Hasayiridən alan gənc İbn Xaldun daha sonra fiqh (dini qavrayış), hədis, qiraət (Quranın tilavəti) kimi şəriət hökmlərinə bağlı elmləri öyrənməyə başlayır. Dövrün mədəni və yaradıcı mərkəzi sayılan Tunis Məğribdə alimlərin və elm xadimlərinin məkanı olmaqla yanaşı, Əndəlüsdən ayrılmalı olan üləmaların da məskunlaşdığı bir bölgə idi. İbn Xaldun buradakı müəllimlərlə təfsir, kəlam elmləri üzrə dini bilgilərini artırıb, lüğət, sarf-nahiv (qrammatika), bəlağət (ritorika) və dil dərsləri almış, zamanla məntiq, fəlsəfə, riyaziyyat elmlərini də öyrənib, bu fənlər üzrə müəllimlərinin təqdirini qazanmışdır ("İlk sosyolog: İbn-i Haldun'un kısaca hayatı" [PDF], n.d.). Nobel Yayıncılık.

Tez-tez qəbilələr arasında səyahət edib, bədəvilərin həyatı ilə tanış olan, fürsət düşdükcə müxtəlif elmlərdən yararlanan İbn Xaldun Marini, Hafsi və Əbdülvadi sülalələrinin idarəçiliyində çox zaman sultanlar və əmirlər qədər nüfuz sahibi səviyyəsinə ucalmışdır. 1377-ci ildə dünya tarixinə – "Kitab əl-İbar vua divan əl-mübtada vua əl-habar fî eyyam əl-Arab vua əl-Acam vua əl-Bərbər vua min-asarahum min-zav əs-sulṭâni əl-akbar" (Ərəb və ərəb olmayanların, bərbərlərin və eyni dövrdə qüdrətli dövlətlərin döyüşləri haqqında mənbə və məlumatlar topluluğu Kitabı) adı ilə bəxş edilən yeddicildlik monumental əsər məhz İbn Xaldunun bilik və təcrübələri ilə hasil olmuş tarixi ensiklopediyadır.

Kitab İslam hüququnun, siyasi və mənəvi müddəalarının olduğu, tarix fəlsəfəsi və ictimai hadisələrin təfərrüatları ilə zənginləşən bir bütövlük təşkil edib, dövrümüzə qədər dəyərini saxlayan fövqəladə bir yaradıcılıq məhsuludur. Birinci cildi *Müqəddimə* adlandıran müəllif tarix fəlsəfəsi olan bu kitabında toplumların inkişaf və hərəkat dalğasını, böyük dövlətlərin döyüş tarixini, fərqli dövrlərdə ictimai və siyasi baxışları, elm, təhsil, siyasət və iqtisadiyyat sahələrini ehtiva etmişdir.

Bəzi mənbələrə görə, İbn Xaldun bir çox ərəb alimlərindən seçilib, üslub nümayiş etdirməklə dünya tarixini hərtərəfli, olduqca geniş məlumatlarla aydınlatdığı bu kitabdan savayı, heç bir əsər qələmə almamışdır. Bəlkə də yaradıcılığı boyu onun digər risalələrindən bəhs etməməsi bilgilərlə tamamlanmış məlum əsərlə zehinlərə yazılıb, daha çox tarixçi kimi tanınmaq istəyi olub. Bununla belə, onun Şimali Afrika və Əndəlüsdə yaşadığı illərdə İbn Rüşd fəlsəfəsinə ithafən yazdığı "Qəsidə-i Bürdə Şerhi", "Kitab əl-məntiq", "Kitab əl-Hisab", Mərakeş sultanına töhfə etdiyi "Kitab fi əl-Şier" əsərləri yenə də onun davamlı tarixçi-yazar fəaliyyətinin məhsullarıdır (Bölükbaşı, 2024, s. 482).

İbn Xaldun klassik İslam düşüncəsindən kənara çıxan çoxşaxəli tarix filosofu, İslam düşüncə tarixində həqiqət axtarışı ilə bütün şübhələrdən qurtulub həqiqətə çata biləcəyini zənn edən Ğazzalidən sonra ikinci bir dönəmi təmsil edirdi. O, yaşadığı dövrün ictimai, siyasi və elmi xüsusiyyətlərini idrak, ilahi nizam, inkişaf və təkamül zəminində birləşdirib, orijinal bir elmin, sistemli bir fəlsəfənin təməlinin yaratmışdır. Onun özündən öncə yazıb-yaratmış tarixçilərə yönələn tənqidi mühakimələri, qəbul etdiyi müddəalar elmi-fəlsəfi əsaslar və tarixi ardıcıllığın həqiqətləri ilə təhlil edilmişdir (Bölükbaşı, 2024, s. 483).

İbn Xaldun düşünən, özünü və ətrafını sorğulayan insanı yaşadığı siyasi və coğrafi şəraitdən qaynaqlanan təcrübələrlə öyrənmiş, "Ümran nəzəriyyəsi"ndə "Asabiyyət" (birlik və həmrəylik ruhu) mövzusunu tarix fəlsəfəsi, onun dərketmə fəaliyyəti ilə araşdırmışdır. Yaşadığı siyasi coğrafiyanın ictimai dəlillər və hadisələri ilə məlumatlı olan müəllif Şimali Afrikanın, xüsusən də bərbərlərin tarixini ilkin mənbələrdən götürüb, qədim mədəniyyətləri, yaşanmış tarixi hadisələri aydınlatmaq məqsədilə dünya tarixinə yönəlmişdir (Kaya, 2012).

İbn Xaldun "Müqəddimə" əsərində "Əqli elmlər və növləri" fəslinin "Musiqi sənəti" bölümündə bu mövzuya dair mühüm mülahizələrə yer vermişdir. Tarixin müxtəlif çağlarında fərqli elm sahələrində fəaliyyət göstərən böyük mütəfəkkir və ixtisasçılar bilgiləri sinifləndirərkən fəlsəfənin qəbul olunmuş meyarlarından istifadə etmişlər. İbn Xaldun da 19-cu – "Əqli elmlər və növləri" adlı fəslə (elmlərin təsnifatı ənənəsinə) musiqini yerləşdirmiş, "Musiqi sənəti" başlığı ilə öncə musiqini sənət olaraq dəyərləndirmiş, sonra bu anlayışın ictimai və ruhi təsirlərini izah etmişdir (Akpınar, 2013, s. 46).

İbn Xaldun da öz xələfləri kimi fəlsəfə və hikmət elmləri adlanan rasional bilikləri məntiq, təbiət, kəlam və riyaziyyat elmləri olaraq sıralandırır: "Bu ardıcıl dörd elmdən dördüncüsü, əqli elmlərə daxil olan "təalim" (riyaziyyat) özlüyündə dörd elmi – həndəsə, hesab, musiqi və astronomiya elmlərini ehtiva edir" (İbn Haldun, 2017, s. 629). Hifz və qiraət elminə malik olan İbn Xaldun Qurani-Kərimin musiqi (məqam) ilə qiraəti haqqında fikirlərini bir fəqih (islam hüquqçusu) yanaşması ilə izah edir. Quranı nəğmə kimi oxumağın düzgün olmayacağını bildirən İbn Xaldun Quranı oxuyarkən uzanıb, qısalacaq hecaları daha öncə nizamlanmış, ölçüyə bölünmüş melodiyaya yerləşdirməyin mümkünsüzlüyünə, söz və məqam birləşməsinin səs, ritm hesabına həll edilməyəcəyinə diqqət çəkir.

"Musiqi ümranda (tərəqqidə) ortaya çıxan ən son sənətdir. Çünki digər sənətlər kamil olub, bəlli ehtiyaclara cavab versə belə, musiqi sadəcə əylənmək və zövq almaq üçün faydalıdır. Eynilə, ümran tənəzzül edib, geriləndikcə, yoxa çıxacaq olan ilk sənət, yenə də musiqidir" (İbn Haldun, 2017, s. 538).

"İşbiliyada bu sənət çox böyük inkişaf qazandı, sonra öz gücünü itirəndə dənizin o tayına, Məğribə keçdi, oradakı şəhərlərə yayıldı. Ümrənin tənəzzülünə, dövlətlərin dağılmasına rəğmən, bu sənətin alovu heç sönmədi" (İbn Haldun, 2017, s. 540). İbn Xaldun Əndəlüsdə bir çox musiqiçilərin, ilk növbədə, Ziryabın xüsusi bir musiqi üslubu yaratdığını dilə gətirib, onun həyat hekayəsini işıqlandırmışdır: "Mövsili adlı bir gənc ustadlarından musiqi dərsləri alıb, bu sənətin mahir ifaçısı olmuşdur. Bunu qəbullanmayanlar onu Məğribə sürgün etdilər. Ziryab sonra Əndülüs hökmdarı Hakim ibn Hişam ibn Əbdurrahman əd-Dahilə sığındı. II Əbdürrəhman Qurtubada onun üçün məxsusi musiqi mərkəzi açıb, onu hər şeylə təmin etdi, ona böyük sərvət və nüfuz qazandırdı. Qurtubada yaşamış Ziryab "Təvaif" (1031–1090) dövrünə qədər Əndəlüsə nəsildən-nəslə ötürülüb, davam edəcək bir "musiqi sənəti" qoyub getdi" (İbn Haldun, 2017, s. 540).

Əbülhəsən Əli ibn Nafi – Ziryab (ö. 852) Əməvilər dövründə Əndəlüsdə, Kordobada yaşamış şair, müğənni, təbiətşünaslıq, tarix və coğrafiya elmləri üzrə geniş məlumatlara sahib bir mədəniyyət və incəsənət xadimi idi.

Ziryab hələ gənc yaşlarında Abbasilər hakimiyyəti dövründə İraq və Bağdadda rəssam, musiqiçi və gənc bəstəkar kimi tanınmağa başlamışdı. Mənbələrdə Ziryabın doğum tarixi və yeri haqqında dəqiq məlumat olmasa da, onun İbrahim əl-Mövsili və ya Abbasi xəlifəsinin qulu olduğu rəvayət edilir. Onun İran əsilli, yaxud ərəb, kürd, yaxud da qaradərili və Afrika mənşəli olması haqqında məlumatlar yenə qələmə alınan bilgilər arasındadır (Erkoçoğlu və Arslan, 2009, s. 262).

Ziryabın ud ifalarından, oxuduğu mahnılardan zövq alıb, bununla kifayətlənməyən II Əbdürrəhman onun bilgili olduğu müxtəlif sahələrdən, xüsusilə, astronomiya, coğrafiya, tarix və poeziyaya dair söhbətlərindən də faydalanmağa çalışırdı. Ziryab tədqiqatçılarının qeyd etdiyi kimi, o, saray əyanı olduğu qədər dövrün ən çox maraq kəsb edən elmlərindən hali idi. Mənbələrə görə, Ziryaba qədər dörd mövsümdə dörd iqliminin təzahürü kimi qəbul edilən uda daha bir sim əlavə edən, yenilikçi Ziryab bu ixtirası ilə alətin daha rahat ifasına, daha dolğun səslənməsinə imkan yaratmışdır (Erkoçoğlu və Arslan, 2009, s. 270).

II Əbdürrəhman Qurtubada Ziryab üçün musiqi məktəbi açmış, buna bənzər tədris ocaqları İşbiliya, Tuleytula, Balensiya və Ğarnata şəhərlərində də yaradılmışdır.

Ziryabın gəlişinə qədər Əndəlüsdə ifaçılığı öyrətmək istəyən müəllimlərin bəsit təlimlərdən savayı, başqa təcrübə üslubları yox idi. O, tədris fəaliyyətinin istiqamətini dəyişib, bu işi üç təlim metodu ilə birləşdirdi. Bu çalışma sistemində öncə müəyyən nəğmənin ritmini təyin edən xanə ölçüsü ilə not və söz hecalarının musiqi müşayiəti ilə oxunmasına, daha sonra bütünlükdə söz və melodiya ifasına, yekunda isə müxtəlif ifadəli səs çalarlarının (za`idə) musiqi məzmununun tamamlanmasına diqqət edilirdi (Erkoçoğlu və Arslan, 2009, s. 273).

Bu məktəblərə yalnız qabiliyyət imtahanı uğurla başa vuranlar daxil ola bilirdi. Ziryabın təməl tədris metodları bu gün də davam edib, dünyanın bir çox musiqi məktəblərində tətbiq olunmaqdadır.

Əndəlüsdə mədəniyyət sahələrinə, özəlliklə musiqi inkişafına uğur qazandıran Ziryab öz yaradıcılığında ərəb, fars və hind əsərlərinin tərkib elementlərini birləşdirərək, hər üç xalqa doğma olub, ruha intiqal edən gözəl nəğmələr, sözsüz melodiyalar bəstələyirdi. Ondan dərs almaq istəyən musiqiçilər Fransadan, Bizansdan və bir çox Avropa ölkələrindən Əndəlüsə gəlir, Ziryab onlara təkmilləşdirdiyi (əl-Ud) çalğı alətində ifa etməyi öyrədir, beləliklə, bu ifa üslubu tədricən Avropaya yayılmağa başlayırdı (Erkoçoğlu və Arslan, 2009, s. 264).

Ziryabın həyat hekayəsi haqqında ən geniş məlumatlar Əlcəzairli bioqraf və tarixçi Əhməd ibn Muhamməd əl-Makkarinin (ö. 1632) əlyazmalarında aşkarlanmışdır. Özünün də qeyd etdiyi kimi, bütün təfərrüatlar Qurtubalı İbn Həyyanın (ö. 1076) "əl-Muqtəbas min ənbai bələdi əl-Ənləlüs" (Əndəlüs Əməvi dövlətinin tarixi) adlı kitabından götürülmüşdür. Əl-Məkkarinin qeydlərində Ziryabın öz sənətinə haqqı ilə vaqif olan ziyalılığından, bəlağətli nitqindən, gözəl səsindən və həlim xasiyyətindən, eləcə də bədahətən şeir söyləmə qabiliyyətindən bəhs edilir. Əndəlüsün mədəniyyət mərkəzi olan Qurtubada böyüyən İbn Həyyanın yazdığı bu bilgilər də önəmlidir: "II Əbdürrəhmanın saraya gəlişindən dərhal sonra Ziryab sarayın baş musiqiçisi oldu, ona musiqi fəaliyyətini inkişaf etdirmək və uca səviyyəyə qaldırma səlahiyyəti verildi" (Erkoçoğlu və Arslan, 2009, s. 264).

Orta əsrlərdə istər Yaxın Şərqdə, istərsə də, Məğrib və Əndəlüsdə fəqihçilərin – İslam hüquqçularının etiraz və qadağalarına rəğmən "musiqi" anlayışı cəmiyyətin bütün təbəqələrində dəyərli və keçərli bir sənət, tədqiq olunacaq bir elm sahəsi idi.

İngilis musiqişünas Henri Corc Fermer (1882–1965) Ziryabdan öncə Əndəlüsün erkən zamanlarında musiqi qavramının tək oktavalı (akkordatura) səs düzənindən ibarət olduğunu, Yaxın Şərqdə İbn Miscahla (ö. 715) başlayıb, İshaq əl-Mövsili (ö. 804) ilə təkmilləşən musiqi nəzəriyyəsi və ifaçılığın Əndəlüsə Ziryabla gəldiyini bildirir (Erkoçoğlu və Arslan, 2009, s. 274).

756-cı ildə Avropanın Aralıq dənizinə uzanan üç yarımadasından birində – İbər yarımadasında (Fransanın cənubu – Septimaniya da daxil olmaqla) hökm sürən Əndəlüs Əməvi Dövləti öz siyasi varlığı ilə çoxdilli xalqların yaşadığı bu diyarda bəşəri, milli-mənəvi dəyərləri ehtiva edən bir cəmiyyət yaratmış, ictimai-iqtisadi mədəniyyətin, elmi inkişafın (tarix, ədəbiyyat, dil, din, fəlsəfə və tibbin) önünü açmışdır. II və III Abdullah hakimiyyəti illərində təşəkkül edib, zirvəyə ucalan bu sivilizasiyanın mühüm yaradıcılarından biri də heç şübhəsiz əsl adı – Əbu əl-Hasan Əli ibn Nafi olan Ziryab idi.

## Nəticə

Ziryabdan sonra musiqi sahəsində söz sahibi olan mütəfəkkirlərin – İbn Habib (ö. 853), Abbas İbn-i Firnas (810–887), İbn Abdürabbih (860–940) və digər elm sahələrində böyük xidmətləri olan İbn Baccə, İbn Rüşd və İbn Haldun kimi parlaq simaların adları hallanmaqdadır. Qeyd etmək lazımdır ki, XI yüzillikdə Əndəlüsün mərkəzi şəhərlərində bilik və sənətə (musiqi, rəssamlıq, miniatür, heykəltəraşlıq və xəttatlıq) yönələn güclü maraqla yanaşı, ölkənin mövcud qanunları Şərq musiqisinin şöhrətinə kölgə saldığı halda, Qərbi Avropa mədəniyyətinin inkişafına rəvac vermiş oldu.

711–1492-ci illər arasında Avropanın cənub-qərbində İbər (Pireney) yarımadasında var olan Əndəlüs mədəniyyəti və birlikdə yaşama təcrübəsi bütün elm sahələrinin maarifləndirici istiqamətləri ilə öyrənib-yaratma, istehsal edib yaşatma meyarları ilə yerləşdiyi coğrafiyada əsrlərlə bəşəriyyətin tərəqqisinə töhfə vermiş saysız istedadlar, geniş zəkalar yetişdirmişdir. Təqribən 800 il bu torpaqlarda hökm sürən Əndəlüs Əməvi Dövləti sadəcə birgəyaşayışın deyil, ortaq mədəniyyətin, elm və biliyin, yaradıcı təfəkkürün ən mühüm təşəbbüsü, yaxud qayəsi olub, sivilizasiya qurucularının – ərəb, bərbər, ispan və yəhudi xalqlarının bu dövlətdə nümayiş etdirdikləri həmrəylik və bağlılığın məkanı idi.

## Ədəbiyyat

1. Akyol, A. (2011). İbn Haldunun elm anlayışında fəlsəfə və tarix təsəvvürü. *Hitit Universiteti İlahiyyat Fakültəsi Jurnalı, 10*(20), 29–59.
2. Akpınar, H. (2013). İbn Haldunun musiqi haqqındakı görüşləri. *Harran Universiteti İlahiyyat Fakültəsi Jurnalı,* 18(30), 44–62.
3. Aydınlı, Y. (1991). İbn Baccenin əsərləri. *Uludağ Universiteti İlahiyyat Fakültəsi Jurnalı, 3*(3), 203–213.
4. Bölükbaşı, M. (2024). Əndəlus Əməvi Dövlətində elmi fəaliyyətlər. *Akademik Sosial Araşdırmalar*, *8*(29), 117–124.
5. Davidson, H. A. (2022). Farabi, İbn Sina və İbn Rüşddə ağıl (E. Kurt, tərc.; S. B. Taşdemir, red.). *Rəcəb Tayyib Ərdoğan Universiteti İlahiyyat Fakültəsi Jurnalı*, *22*, 449–455.
6. Erkoçoğlu, F., & Arslan, F. (2009). Əndəlusun "sənət günəşi" Ziryab. *İstem*, *7*(14), 261–281.
7. Gümüş, B. (2023). *Əməvi Dövləti xilafət dövrü (929–1031)* (magistr dissertasiyası). Bartın Universiteti Lisansüstü Təhsil İnstitutu.
8. İbn Haldun. (2017). *Müqəddimə* (T. Dursun, tərc.; I–II cild). Kaynak Nəşriyyatı.
9. İbn Rüşd. (2016). *Aristotelin Metafizikasına böyük şərh* (M. Macit, tərc.). Litera Nəşriyyatı.
10. İbn Tüfeyl. (2020). *Ağlın həyatı* (Z. Yılmazer, tərc.). Kat Nəşriyyatı.
11. İrğat, M. (2018). Tarixin yenidən qurulması: İbn Haldunun tarixə tənqidi, elmi və fəlsəfi yanaşması. *Beynəlxalq Sosial Elmlər Jurnalı (JASSS)*, 3188, 481–491.
12. Kaya, M. C. (2012). *İslam fəlsəfəsi: Tarix və problemlər*. Türkiyə Diyanət Vəqfi Nəşrləri.
13. Köroğlu, B. (2022). İbn Bacce və İbn Tüfeyl fəlsəfələrində təvəhhüd–hikmət əlaqəsi: Müqayisəli analiz yanaşması. *Beytülhikmə Beynəlxalq Fəlsəfə Jurnalı, 11*(4), 1679–1723.
14. Özdemir, M. (2012). *Əndəlus müsəlmanları: Mədəniyyət və sivilizasiya*. Türkiyə Diyanət Vəqfi Nəşrləri.
15. Tortuk, B. B. (2016). İbn Rüşd fəlsəfəsində Tanrının biliyi ilə varlıq arasındakı əlaqə. *Süleyman Dəmirəl Universiteti İlahiyyat Fakültəsi Jurnalı*, *36*, 75–93.
16. Uyanık, M., & Akyol, A. (2017). *İslam fəlsəfəsində "fərdi idarəetmə" və "fərdi əxlaq" anlayışı: İbn Bacce – Tədbîrü'l-mütəvahhid*. Elis Nəşriyyatı.
17. Yıldız, Ş. (2023). Əndəlus mədəniyyətinin kökləri və birgə yaşama təcrübəsi. *Uludağ Universiteti İlahiyyat Fakültəsi Jurnalı, 8*(3), 294–302.

Daxil oldu: 19.10.2025
Qəbul edildi: 30.01.2026